**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 254/7** **10 sentyabr 2014-cü il**

**«Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun qəbul olunmasının 20 illiyi ilə əlaqədar tədbirlərin keçirilməsi haqqında**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən «Auditor xidməti haqqında» Azərbaycan Respublikası Qanununun 1994-cü il 16 sentyabr tarixdə imzalanmasının 20 illiyi münasibəti ilə tədbirlərin həyata keçirilməsi məqsədi ilə Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Auditorlar Palatası kollektivinin və üzvlərinin iştirakı ilə 2014-cü il 16 sentyabr tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Fəxri Xiyabanda məzarı ziyarət edilsin.
**2.** 1994-2014-cü illər ərzində ölkədə müstəqil auditor xidmətinin inkişafına həsr olunmuş brifinqin keçirilməsi məqsədəmüvafiq hesab edilsin.
**3.** Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**